

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 228 (20.882)

5 dekabr 2013-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## AMEA Naxçıvan Bölməsində "Heydər Əliyev lektoriyası"nın növbəti məşğələsi keçirilib

***Dünən AMEA Naxçıvan Bölməsində "Heydər Əliyev lektoriyası"nın 57-ci məşğələsi keçirilmişdir. Lektoriyanın budəfəki mövzusu "Heydər Əliyev – siyasi rəhbərlikdən ümummilli liderliyə" olmuşdur.***



Məşğələni giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev qeyd etmişdir ki, tarixdə hər bir siyasi lider dövlət xadiminə çevrilə bilmədiyi kimi, dövlət xadimi olan hər bir siyasi lider də ümummilli liderə çevrilə bilmir. Ümummilli liderə o şəxsiyyətlər çevrilə bilirlər ki, onlar taleyüklü məqamlarda məsuliyyəti cəsarətlə öz üzərlərinə götürür, milli və dövlətçilik maraqlarını bütün addımları atmaq üçün əsas istiqamətverici amil hesab edir və millətinin öz müqəddəratını müstəqil şəkildə təyin etməsini təmin edirlər. Xalqımızın böyük oğlu Heydər Əliyev bu keyfiyyətləri özündə ehtiva edən siyasi lider, görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideridir. Bölmə sədri dünya səviyyəli müxtəlif dövlət və siyasi xadimlərin ümummilli lider haqqında söylədiyi fikirləri xatırlatmışdır.

Sonra AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, tarix elmləri doktoru, professor Fəxrəddin Səfərli "Heydər Əliyev – siyasi rəhbərlikdən ümummilli liderliyə" mövzusunda məruzə etmişdir. Bildirilmişdir ki, Azərbaycanın son qırx ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu illər ərzində xalqın ictimai-siyasi və mədəni həyatının bütün sahələrindəki dirçəliş məhz onun müdrik və uzaqgörən fəaliyyətinin nəticəsidir. Ulu öndər Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır.

Ümummilli lider Heydər Əliyev birinci dəfə siyasi hakimiyyətə gələndə – 1960-cı illərin axırlarında Azərbaycan iqtisadi və mədəni tənəzzül dövrünü yaşayırdı. O zaman məhz dahi rəhbərin gəlişi ilə cəmiyyət həyatının bütün sahələrində sürətli yüksəliş, milli ruhun inkişafı və mənəviyyatın tərəqqisi dövrü yaşanmışdır.

Azərbaycanın XX əsrin 90-cı illərinin əvvəllərində düşdüyü ağır ictimai, iqtisadi, siyasi böhrandan danışan məruzəçi o zaman blokada şəraitində olan, düşmən təcavüzünə məruz qalan Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılmasında ümummilli liderin misilsiz xidmətlərindən bəhs etmişdir.

Qeyd olunmuşdur ki, ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə gələndə ölkəni vətəndaş müharibəsi təhlükəsindən, ictimai-siyasi parakəndəlikdən xilas edə bilmiş və cəmiyyətin məqsədini, qayəsini öz varlığında, özünün güclü şəxsiyyətində təzahür etdirərək, doğma xalqını yenidən vahid bir məfkurə ətrafında səfərbər edib onun qəlbində sabaha inam hissi yaratmağı bacarmışdır.

Bütün bu illər ərzində məhz görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan həqiqətlərini qətiyyətlə bütün dünyaya tanıda bilmişdir. Azərbaycan yalnız ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirməyi bacarmışdır. Ulu öndər Heydər Əliyevin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi arxada qalmışdır.

Vurğulanmışdır ki, müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz xalqımızın böyük oğlu Heydər Əliyev yaratmışdır. Bütün mənalı həyatını öz xalqına bəxş etmiş dahi rəhbərin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur. Məşğələyə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurmuşdur.

✍ Elnur KƏLBİZADƏ

## Heydər Əliyev Muzeyinin xatirə dəftərindən

Azərbaycan xalqına böyük itki üz vermişdir. Xalqımızın ümummilli lideri, bütün türk dünyasının, dünya azərbaycanlılarının tanınmış rəhbəri Heydər Əliyev vəfat etmişdir.

Ulu öndər Heydər Əliyevin vəfatı onu uzun müddətdən bəri tanıyan və onun rəhbərliyi altında işləyən adam kimi məni daha çox kədərləndirdi və sarsıtdı.

Lakin bu ağır dərd bizi sarsıtsa da, müstəqil və demokratik Azərbaycanı və Naxçıvan Muxtar Respublikasını gələcəkdə Heydər Əliyevin istədiyi kimi inkişaf etdirmək üçün biz başımızı dik tutmağı bacarmalıyıq.

Azərbaycan xalqı bir nəfər kimi Heydər Əliyev məktəbi keçmiş Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşməli, bütün işlərdə ona arxa və kömək olmalıdır.

Bu ağır dəqiqələrdə xalqımın dərdinə şərik oluram. Xalqımın bütün təbəqələrini milli birliyə çağırıram.

**Səkinə ƏLİYEVA**
***Prezident təqaüdçüsü***
***Naxçıvan şəhəri, 17 dekabr 2003-cü il***

## Ulu öndərin xatirəsi anılır

Ümummilli liderimiz Heydər Əliyevin anım günü ilə əlaqədar Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində tədbir keçirilmişdir. Tədbirdə mərkəzin əməkdaşları Çinarə Səfərovanın, Günel Fətəlixanlının və Xəyalə Səfərovanın çıxışları olmuşdur.

Çıxışlarda qeyd edilmişdir ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsi hər bir azərbaycanlının qəlbində dərin kök salmışdır. Xalqı qarşısında göstərdiyi misilsiz xidmətlər ümummilli liderimizin şərəfli ömrünü tariximizin canlı səhifəsinə çevirmiş, ona əbədiyaşarlıq hüququ qazandırmışdır. Xeyirli əməllər sahibi, müqəddəs şəxsiyyət olduğundan Heydər Əliyevin qurub-yaratdıqları, dərin düşüncəli ideyaları təkcə dünənki və bugünkü nəsillərə deyil, həm də neçə-neçə gələcək nəsillərə hesablanmışdır. Dahi şəxsiyyət Heydər Əliyevin bütün fəaliyyətinin, atdığı addımların mahiyyəti yalnız xalqına xidmət etmək arzusundan doğurdu. Biz yaşadıqca, onun açdığı yollarla irəlilədikcə bu dahi insanın böyüklüyünü, müdrikliyini, uzaqgörənliyini daha dərindən dərk edirik.

Vurğulanmışdır ki, ulu öndərin siyasi kursu, göstərdiyi yol elə bir yoldur ki, bu yolla irəliləyən xalq daim inkişafa, tərəqqiyə qovuşur. Azərbaycanın qazandığı nailiyyətlər buna bariz nümunədir. Ölkəmiz özünün inkişaf dövrünü yaşayır, yüksək bəşəri dəyərlərə, güclü iqtisadiyyata, elmi-texniki potensiala və zəngin təbii ehtiyatlara malik olmaqla sürətlə irəliyə doğru addımlayır. Şəhər və kəndlərimiz günbəgün dəyişir, regionlarımız müasirləşir.

Qeyd olunmuşdur ki, muxtar respublikamızda ulu öndərin uzaq gələcəyə hesablanmış siyasətinin uğurlu davamı dahi öndərə böyük sevgi və məhəbbətin təcəssümüdür. Bunun nəticəsidir ki, qədim Naxçıvan ölkəmizin nail olduğu sürətli inkişafın önündə gedir. Geniş vüsət alan quruculuq-abadlıq işləri, sosial-iqtisadi, mədəni yüksəliş, təhsildə əldə olunan nailiyyətlər doğma diyarımızın xoş sabahından xəbər verir. Qazanılan uğurlar Heydər Əliyev siyasi kursunun qüdrətini bir daha təsdiqləyir və sübut edir ki, Azərbaycan var olduqca ulu öndər Heydər Əliyevin ideyaları və əməlləri də əbədi olaraq yaşayacaqdır.

Sonra mərkəzin dərnək üzvləri ulu öndərimizə həsr olunmuş şeirləri bədii qiraət etmişlər.

* * *

***Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar dünən Naxçıvan Dövlət Tarix Muzeyində Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin şagirdlərinin iştirakı ilə "Əbədiyaşar dahi" mövzusunda açıq dərs keçilmişdir.***

Muzeyin Elmi ekspozisiya şöbəsinin müdiri Nərminə Allahverdiyeva bildirmişdir ki, ümummilli lider Heydər Əliyevin adı xalqımızın tarixinə dahi xilaskar və qurucu lider kimi həkk edilmişdir. Ötən əsrin 1990-1993-cü illərində respublikaya rəhbərlik edənlərin səriştəsizliyi ucbatından ölkəmizdə özbaşınalıq yaranmış, daxili sabitlik pozulmuş, vətəndaş müharibəsi qaçılmaz olmuşdu. Torpaqlarımızın 20 faizinin işğal edildiyi, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyi bir zamanda xalqın, sözün əsl mənasında, böyük bir liderə – əsl xilaskara ehtiyacı vardı. Belə bir vəziyyətdə ölkəni, dövlətçiliyimizi və müstəqilliyimizi təhlükədən yalnız Heydər Əliyev dühası qurtara bilərdi. Buna görə də xalqımız öz böyük oğluna, müdrik şəxsiyyət Heydər Əliyevə üz tutdu. Xalqın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyev 1993-cü ilin 15 iyun tarixində yenidən siyasi hakimiyyətə qayıtdı. Məhz bu tarixdən Azərbaycanın Qurtuluş Gününün təməli qoyuldu.

Məktəbin tarix müəllimi Seydabəyim Seyidova açıq dərsdə bildirmişdir ki, ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ölkəmizin müstəqilliyinin əbədiliyini təmin etdi. Ölkədə əmin-amanlıq yaradıldı, bütün sahələrdə islahatlara başlanıldı. Tarix üçün çox qısa zamanda Azərbaycan öz iqtisadi, siyasi, mədəni gücü ilə dünya dövlətləri sırasında yer almış oldu. Təbii ki, bütün bunlar heç də asan başa gəlmədi. Xalq öz liderinə, dahi şəxsiyyət isə öz xalqına arxalanaraq bunları həyata keçirdi. Buna görə də müstəqil Azərbaycan dövləti var olduqca xalqımızın xoşbəxt gələcəyini təmin edən ümummilli lider Heydər Əliyevin adı qəlbimizdə əbədiyaşar və dahi şəxsiyyət kimi yaşayacaqdır.

Sonra şagirdlər muzeyin ekspozisiyası ilə tanış olublar.

✍ Səbuhi HƏSƏNOV

## Hava limanında yeni quruculuq ünvanları



Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı özünü bütün sahələrdə göstərməkdədir. Son illər yüzlərlə sosial obyektin tikilib istifadəyə verilməsi, yeni infrastruktur layihələrinin reallaşdırılması bunun əyani sübutudur. Digər sahələrlə yanaşı, muxtar respublikada hava nəqliyyatı infrastrukturu da daim müasirləşir, dövrün tələblərinə uyğunlaşdırılır.

Bu tədbirlərin davamı olaraq, Naxçıvan Beynəlxalq Hava Limanı üçün yeni inzibati bina inşa edilir. Zirzəmi ilə birlikdə dörd mərtəbədən ibarət olan binada tikinti işlərini "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları həyata keçirirlər. Obyektin iş icraçısı Fəxrəddin Əliyarovun bildirdiyinə görə, binada əsas tikinti işləri başa çatdırılıb, dam örtüyü vurulub. Hazırda kommunikasiya xətlərinin çəkilişi, havalandırma sistemlərinin qurulması, fasadın üzlənməsi aparılır, şəbəkəbəndlər quraşdırılır, həyətdə abadlıq işləri görülür.

* * *

Hava limanı ərazisində inşası sürətlə davam etdirilən daha bir obyekt isə Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi üçün nəzərdə tutulub. Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada inşaat işlərini "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları aparırlar. Obyektdə qəlib-beton işləri başa çatdırılıb, dam örtüyü vurulub. Hazırda binada kommunikasiya xətləri çəkilir, fasad hissə üzlənir, dəhlizlərə üzlük daşlar döşənir. Obyektdə işlərin gedişatı belə deməyə əsas verir ki, bina yaxın vaxtlarda Hava Nəqliyyatında Gömrük İdarəsi əməkdaşlarının istifadəsinə veriləcək.



## Yeni yaşayış binasının tikintisi davam etdirilir

Əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər geniş vüsət alan tikinti-quruculuq işlərinin tərkib hissəsidir. Naxçıvan şəhərinin Atatürk küçəsində inşası davam etdirilən 9 nömrəli yaşayış binasının tikintisi bu tədbirlərin davamıdır. Zirzəmi ilə birlikdə 9 mərtəbədən ibarət olacaq binada tikinti işlərinə bu ilin fevral ayından başlanılıb. İş icraçısı Kamal Cəfərovdan aldığımız məlumata görə, 54 mənzildən ibarət olacaq binada, əsasən, üç və dördotaqlı mənzillər yerləşəcək. Hazırda binanın ilk 4 mərtəbəsində arakəsmələr hörülüb, sonuncu mərtəbədə isə qəlib-beton işləri aparılır. "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən aparılan tikinti işlərində, əsasən, yerli tikinti materiallarından istifadə olunur. Tikintidə təhlükəsizlik qaydalarına ciddi əməl edilir. İnşaatçılar işin keyfiyyətlə və vaxtında başa çatdırılması üçün əllərindən gələni əsirgəmirlər.



**Xəbərlər şöbəsi**



*Ulu öndər Heydər ƏLİYEV: Bizim islahatlarımız bütün sahələrdə gedir. Təbiidir ki, biz birinci növbədə iqtisadiyyatda dəyişikliklər etməli idik, yəni iqtisadiyyatın vəziyyətini düzəltməli idik. Çünki iqtisadiyyat hər şeyin əsasıdır. Azərbaycan dövlət müstəqilliyi əldə edən zaman çox güclü iqtisadi potensiala malik bir ölkə olmuşdur. O vaxtlar SSRİ-yə daxil olan 15 müttəfiq respublikanın içərisində yalnız Azərbaycan və Rusiya özü-özünü təmin etməyə qadir olan respublikalar idilər. Ancaq təəssüflər olsun ki, 1988-1989-cu illərdən başlayaraq Azərbaycanda gedən dağıdıcılıq prosesi ölkəmizin iqtisadiyyatına böyük zərbələr vurmuşdu. Artıq ölkəmiz öz dövlət müstəqilliyini əldə edən zaman və ondan sonrakı illərdə Azərbaycanın iqtisadiyyatı nəinki inkişaf etməyib, ilbəil aşağı düşübdür, tənəzzülə uğrayıbdır. Ona görə biz bu tənəzzülün qarşısını almalı idik. Bu da asan məsələ deyildi. Çünki çox şey dağılmışdı. Biz yalnız 1995-ci ildə iqtisadiyyatda tənəzzülün qarşısını aldıq. 1996-cı ildən Azərbaycanda iqtisadiyyatın inkişafını təmin etməyə başladıq.*

*Azərbaycanın özü qədər əbədi*

# Azərbaycan iqtisadiyyatının davamlı yüksəlişi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır

***Xalqımızın ümummilli lideri, fenomenal şəxsiyyət Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrlərdə ictimai həyatın bütün sferalarında olduğu kimi, iqtisadi sahədə də atılan həlledici addımlar Azərbaycan iqtisadiyyatının tərəqqisində müstəsna rol oynamışdır.***

Ulu öndərin milli dövlətçilik konsepsiyasının əsas atributlarından biri olan müstəqil və inkişaf etmiş iqtisadiyyat quruculuğu onun gərgin əməyi sayəsində gerçəkliyə çevrilməklə müasir Azərbaycanın iqtisadi və sosial inkişaf yolunu müəyyən etmişdir. Ölkəni rifaha aparan bu yolun başlanğıcı 1969-cu ildə xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə bütün sahələrdə mövcud olan geriliyi aradan qaldırmaq məqsədilə start götürmüş irimiqyaslı islahatlarla qoyulmuşdur. Həmin dövrlərdə görkəmli dövlət xadimi Heydər Əliyevin səyləri nəticəsində uzun illərdən bəri respublika iqtisadiyyatında kök salmış tənəzzül və durğunluq meyilləri yüksək inkişaf templəri ilə əvəz olunmuş, iri layihələrin həyata keçirilməsi hesabına böyük iqtisadi potensial yaradılmışdı. Ona görə də mütəxəssislər haqlı olaraq dönə-dönə vurğulayırlar ki, Azərbaycanın bugünkü inkişafının təməli həmin dövrdə ulu öndər Heydər Əliyev tərəfindən yaradılmış potensiala əsaslanır. Məhz həmin illərdə Vətəninə, xalqına sədaqət ruhunda, yüksək peşəkarlıq, təşkilatçılıq və idarəçilik bacarığı əsasında həyata keçirilən tədbirlərin nəticəsi olaraq iqtisadi sahədə qarşıya qoyulan məqsəd və vəzifələrin icrasına yüksək səviyyədə nail olunmaqla respublikamız keçmiş SSRİ miqyasında 12 dəfə qırmızı keçici bayraq əldə etmişdi.

İqtisadiyyatda şaxələndirmə strategiyasının tətbiqi ümummilli liderin idarəçilik təcrübəsində hələ o zamanlardan mövcud olmuşdur. Belə ki, uzun müddət sovet Azərbaycanında yanacaq sənayesi başlıca sahə idisə və onun payına bütün sənaye istehsalının 85 faizi düşürdüsə, 1980-ci illərin əvvəlində ölkənin sənaye strukturunda artıq bütün müasir sahələr təmsil edilmişdi. Azərbaycanın sənayesi keçmiş ittifaqın bütün respublikalarından fərqli olaraq orta illik artım 7,9 faiz olmaqla daha yüksək sürətlə inkişaf edirdi. 1969-cu ilədək Azərbaycanda 735 sənaye obyekti tikilmişdisə, görkəmli dövlət xadimi Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1969-1982-ci illərdə onların sayı 1048-ə çatdırılmışdı.

1993-cü ildə xalqımızın təkidli tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra ulu öndər Heydər Əliyevin işləyib hazırladığı iqtisadi inkişaf konsepsiyası əsasında ölkədə başlanan ciddi islahatlar müstəqillik dövrü iqtisadiyyatının formalaşmasında mühüm mərhələni təşkil etmişdir. Ümummilli lider həmin dövrdə iqtisadiyyatda mövcud olan situasiyanı və qarşıda duran vəzifələri xarakterizə edərək deyirdi: ***"Respublika iqtisadiyyatı, demək olar ki, tamamilə dağılıb, xalqın rifah halı aşağı düşüb. Lakin respublikanın böyük sosial-iqtisadi, elmi-texniki potensialı var. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Digər tərəfdən, yeni islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik".***

Doğrudan da, ictimai-siyasi sabitliyin təmin olunması, iqtisadiyyatın təkamül yolu ilə yeni iqtisadi sistemə transformasiyası, çoxmülkiyyətli iqtisadiyyatın formalaşması və digər tədbirlərdən sonra iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırılmış, bununla da, Azərbaycan iqtisadiyyatının inkişafında mahiyyətcə yeni mərhələnin təməli qoyulmuşdur. Ümummilli liderin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə həyata keçirilən aqrar islahatlar iqtisadiyyatımızın çox mühüm sahəsi olan kənd təsərrüfatında yeni iqtisadi münasibətlərin təşəkkül tapmasına şərait yaratmışdır.

Əldə olunan makroiqtisadi sabitlik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən genişmiqyaslı islahatların ilkin nəticələri aparılan siyasətin düzgünlüyünü və Azərbaycanın bazar iqtisadiyyatı yolunda inamlı addımlarını təsdiq edirdi.

Bazar münasibətlərinə keçidi şərtləndirən iqtisadi, siyasi, hüquqi islahatların gerçəkləşdirilməsi ilə yanaşı, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, habelə Xəzərin karbohidrogen ehtiyatlarından məharətlə istifadə edilməsi nəticəsində ölkəmiz, tədricən, ümummilli böhranı aradan qaldırmağa, sabit inkişaf yoluna qədəm qoymağa müvəffəq ola bilmişdir. Ulu öndər Heydər Əliyevin enerji siyasəti Azərbaycanın beynəlxalq nüfuzunu artırmaqla yanaşı, onun geosiyasi və geoiqtisadi mövqelərini daha da möhkəmləndirmiş, dövlətimizi dünyanın siyasi-iqtisadi arenasında etibarlı tərəfdaş və sabit enerji təminatçısı kimi tanıtmışdır.

Ümummilli lider Heydər Əliyevin ölkəmizə ikinci rəhbərliyi dövründə Əsrin müqaviləsi də daxil olmaqla, dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə imzalanmış 21 saziş çərçivəsində görülən işlər miqyasına görə XX yüzilliyin ən möhtəşəm layihələri kimi iqtisadi tariximizdə dərin izlər buraxmışdır. Həmin illərdə Bakı-Novorossiysk neft kəmərinin bərpa olunması, Bakı-Supsa kəmərinin tikilməsi, Səngəçal və Supsa terminallarının inşa edilməsi enerji sektorunda böyük iqtisadi uğurlarımızın təməlini qoymuşdur. Ulu öndər Heydər Əliyevin müəllifi olduğu, Azərbaycan neftinin və təbii qazının Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə ixracını nəzərdə tutan və çoxlarının şübhə ilə yanaşdığı, əfsanə adlandırdığı nəhəng layihə qısa bir zamanda reallaşdırılmışdır. Bu layihə bir tərəfdən özünün texniki, iqtisadi, kommersiya, maliyyə göstəricilərinə görə, digər tərəfdən isə nəinki ölkəmizin, eləcə də Avropanın enerji təhlükəsizliyində oynadığı rola və dünyanın aparıcı neft şirkətlərinin marağını cəlb edə bilməsinə görə dünya əhəmiyyətli bir hadisə kimi qiymətləndirilir.

Milli sərvətin nəsillər arasında ədalətli bölgüsü, neft gəlirlərinin səmərəli idarə edilməsi məqsədilə 1999-cu ildə Dövlət Neft Fondu təsis edilmiş və bu gün uğurla fəaliyyət göstərməkdədir. Fondun qarşısında qoyulan əsas məqsədlər neft gəlirlərinin gələcək nəsillər üçün toplanaraq artırılması və eyni zamanda bu gəlirlərdən ölkəmizin sosial ehtiyaclarını, iqtisadi tərəqqi və inkişaf tələblərini nəzərə almaqla bugünkü nəsillər üçün istifadə edilməsidir. Açıqlanan son məlumata görə, artıq fondda 35,8 milyard dollar həcmində valyuta ehtiyatları toplanmışdır.

Xalqımızın böyük oğlu Heydər Əliyevin tarixi İpək Yolunun bərpası sahəsində atdığı addımlar nəticəsində 1998-ci ildən başlayaraq Avropa-Qafqaz-Asiya magistral dəhlizində Azərbaycanın mərkəzi mövqe tutması ölkəmizin Avropa ölkələri ilə səmərəli iqtisadi əlaqələrin inkişafına əlverişli zəmin yaratmışdır.

Beynəlxalq və regional əhəmiyyətli layihələrdə müəllifliyin və fəal iştirakçılığın təmin edilməsi ilə yanaşı, ölkə daxilindəki hər bir iqtisadi proses də daim onun diqqət mərkəzində olmuşdur. Azərbaycanda və keçmiş SSRİ-də uzun müddət ali rəhbər vəzifələrdə çalışmış təcrübəli və müdrik bir dövlət xadimi kimi ulu öndər Heydər Əliyev Azərbaycanın iqtisadi potensialı barədə dəqiq məlumatlara malik idi. Elə bir şəhər, rayon, qəsəbə, iri sənaye, emal müəssisəsi tapmaq olmazdı ki, dahi rəhbər Heydər Əliyev şəxsən ora baş çəkməsin, onun təsərrüfatı, işi ilə maraqlanmasın. O, həmçinin regionların kompleks inkişafına, o cümlədən infrastruktur sahələrinin bərpası və genişləndirilməsinə, yeni istehsal və emal müəssisələrinin, sosial-mədəni obyektlərin yaradılmasına, yeni iş yerlərinin açılmasına, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına yüksək səviyyədə diqqət yetirirdi.

Bu gün Azərbaycan iqtisadi inkişafın yeni mərhələsindədir, ölkədə texnoloji və innovativ iqtisadiyyata yönəldilmiş siyasət həyata keçirilir. Azərbaycan Respublikası bir çox inkişaf parametrlərinə görə dünyanın inkişaf etmiş ölkələri ilə arasında olan fərqi azaltmaqdadır. Ölkəmizdə Heydər Əliyev siyasətinin formalaşdırdığı möhkəm iqtisadi təməl demokratik proseslərə dinamizm qazandırmış, əhalinin sosial-rifah halının daha da yaxşılaşdırılması üçün geniş perspektivlər açmışdır. Heydər Əliyev siyasətinin uğurla davam etdirildiyi 2003-2013-cü illər ərzində Azərbaycanda dinamik sosial-iqtisadi inkişaf, demokratik və müasir dövlət quruculuğu sahəsində mühüm addımlar atılmışdır. Son 10 ildə iqtisadiyyatımızda müasir sosial-iqtisadi infrastruktur yaradılmış, iqtisadiyyat şaxələndirilmiş və qeyri-neft sektorunun dinamik inkişafı təmin edilmişdir. Bu dövr ərzində ölkədə bir milyon 200 mindən çox yeni iş yeri açılmış, işsizlik səviyyəsi 4,8 faizədək azalmışdır. 2003-cü ildə Azərbaycanda yoxsulluq səviyyəsi 49 faiz təşkil edirdisə, 2013-cü ildə bu rəqəm cəmi 6 faiz olmuşdur. Bu, yoxsulluqla mübarizə sahəsində dünyada ən yüksək göstəricilərdən biridir. Azərbaycan iqtisadiyyatına bütövlükdə 150 milyard dollar həcmində sərmayə qoyulmuş, ölkənin strateji valyuta ehtiyatları 49,4 milyard dolları ötmüşdür. Ölkəmiz regionda lider dövlətə çevrilmişdir. Hazırda Cənubi Qafqaz iqtisadiyyatının təqribən 80 faizi Azərbaycan Respublikasının payına düşür. Azərbaycan 2013-cü ildə özünün telekommunikasiya peykinin orbitə buraxılması ilə inkişaf etmiş iqtisadiyyatlar və ölkələr sırasında təmsil olunmağa qadir olduğunu sübut etmişdir. Bütün bu uğurların etibarlı təməli, şübhəsiz ki, dövlətin iqtisadi inkişaf məqsədlərini daim diqqət mərkəzində saxlayan ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***"Bu günə qədər aparılan islahatlar və əldə edilmiş nəticələr deməyə əsas verir ki, bundan sonra da Azərbaycanın uğurlu inkişafı təmin ediləcəkdir. Bütün makroiqtisadi göstəricilər yüksək səviyyədədir, iqtisadiyyatımız doqquz ayda 5,4 faiz artmışdır... Son on ildə Azərbaycan iqtisadiyyatı 3,4 dəfə artmışdır. Heç bir başqa ölkədə son on il ərzində buna oxşar nəticə müşahidə olunmamışdır. Bu, bizim nailiyyətimizdir".***

Azərbaycanın sosial-iqtisadi inkişafı sahəsindəki uğurları beynəlxalq aləm tərəfindən də yüksək qiymətləndirilir. Bu da ölkəmizin dünya arenasındakı siyasi nüfuzunu getdikcə yüksəldir. Dünyanın aparıcı beynəlxalq təşkilatları, qurumları və tanınmış siyasətçilər, iqtisadçılar Azərbaycanda həyata keçirilən islahatları və iqtisadi mühiti inkişaf etməkdə olan ölkələr üçün nümunə kimi göstərirlər. Ölkəmizin iqtisadi sahədəki uğurları beynəlxalq reytinq mərkəzləri və nüfuzlu təşkilatlar tərəfindən yüksək qiymətləndirilir.

Heydər Əliyev siyasətinin Naxçıvan Muxtar Respulikasında da uğurla davam etdirilməsinin nəticəsidir ki, Naxçıvan bütün sahələrdə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Təkcə son on ildə muxtar respublika iqtisadiyyatı real ifadədə 12,5 dəfə artmışdır. Sənaye sahəsində 45,4 dəfə, kənd təsərrüfatında 4,5 dəfə, tikinti sektorunda 14,2 dəfə, nəqliyyat sektorunda gəlirlər üzrə 3,3 dəfə, rabitə və informasiya sektorunda 9,7 dəfə, xarici ticarət dövriyyəsində 12,2 dəfə artım olmuşdur. İqtisadiyyatın və sosial sahələrin inkişafı üçün əsas kapitala 3 milyard 704 milyon manat vəsait yönəldilmiş, onun 46,4 faizini dövlət, 53,6 faizini isə qeyri-dövlət investisiyaları təşkil etmişdir. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin həcmi 15,8 dəfə artaraq 3 milyard 588 milyon manat təşkil etmiş, xarici mənbələrdən əsas kapitala 116 milyon manat vəsait yönəldilmişdir. Dövlət tərəfindən sahibkarlıq subyektlərinə 89,8 milyon manat güzəştli kredit verilmişdir. Ümumi məhsul istehsalının həcmində qeyri-dövlət müəssisələrinin payı 87 faiz olmuşdur. Bu dövrdə 954 istehsal və xidmət müəssisəsi yaradılmış, sahibkarlıq subyektlərinin sayı 2 dəfə artmışdır. Sahibkarlığın inkişafına göstərilən qayğının, iqtisadiyyatın sürətli inkişafının nəticəsidir ki, 58 min 460 yeni iş yeri açılmış, muxtar respublikada işsizliyin səviyyəsi sıfra enmişdir.

***Heydər Əliyev yolunu inamla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında son onillikdə əldə olunmuş nailiyyətlər bir daha təsdiq edir ki, Azərbaycan iqtisadi və sosial sahələrdə yeni çağırışları qarşılamağa hazırdır və bunun üçün adekvat inkişaf strategiyasına malikdir. 2013-cü ilin prezident seçkiləri isə sübut etdi ki, xalqımız bu strategiyanı formalaşdıran Heydər Əliyev ideyalarına və onu gerçəkləşdirən siyasi liderə – ölkə Prezidenti cənab İlham Əliyevə sadiqdir!***

**Müslüm CABBARZADƏ**
*iqtisad üzrə fəlsəfə doktoru*

*İnsan cəmiyyətinin formalaşdığı ən qədim dövrlərdən müasir günümüzədək dünyanın elə bir görkəmli şəxsiyyətini göstərmək mümkün deyil ki, onun məktəblə, təhsillə bağlı müdrik kəlamları olmasın. Təhsilə həmişə xalqın intellektual potensialını formalaşdıran, elmi səviyyəsini yüksəldən strateji əhəmiyyətə malik bir sahə kimi baxılmışdır. Təsadüfi deyil ki, tarixin müxtəlif dövrlərində ayrı-ayrı xalqların və dövlətlərin bəşər sivilizasiyasına verdiyi töhfələr qiymətləndirilərkən təhsilin səviyyəsi, məktəblərin rolu da nəzərə alınır. Hələ XIX əsrin sonlarında Azərbaycanın görkəmli maarifçi ziyalılarından olan, "Əkinçi" qəzetini təsis etməklə milli mətbuatımızın əsasını qoyan Həsən bəy Zərdabi deyirdi: "Maarifdən, elmdən məhrum bir xalq işıqdan məhrumdur".*

*Ziyalı sözü*

# Qəsəbə məktəbi: dünən və bu gün



Azərbaycanın tərəqqisi və inkişafı üçün cahanşümul tarixi əhəmiyyətə malik işlər görən, xalqımızın xilaskarı, müstəqilliyimizin banisi, ümummilli liderimiz Heydər Əliyev müasir Azərbaycan cəmiyyətinin və dövlət quruculuğumuzun formalaşmasında təhsil sisteminin və burada çalışan çoxsaylı ziyalılarımızın rolundan danışarkən demişdir: ***"Təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər onlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Onlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik".***

Məhz bu səbəbdəndir ki, ulu öndərin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra da məlum çətinliklərə baxmayaraq, elm və təhsil sahəsinə xüsusi önəm verilmiş, yeni-yeni binaların tikintisi, mövcud binaların əsaslı təmir edilməsi, onların maddi-texniki bazasının zənginləşdirilməsi daim diqqət mərkəzində saxlanılmışdır. Böyük iftixar hissi ilə qeyd edilməlidir ki, bu gün də bu iş Heydər Əliyev siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bu gün ulu öndərin təhsil strategiyasının uğurla davam etdirilməsi muxtar respublikamızda daha qabarıq şəkildə özünü göstərir. Cəmiyyət həyatının bütün digər sahələrində olduğu kimi, muxtar respublikamızın təhsil sahəsində də son 18 il ərzində həyata keçirilmiş möhtəşəm quruculuq tədbirləri bütün sovet dövründəkindən qat-qat üstündür. Bunu ölkə başçısı cənab İlham Əliyevin aşağıdakı sözlərindən də görmək olar: ***"Naxçıvanda çox böyük quruculuq işləri aparılır. Burada gedən quruculuq-abadlıq işləri, yeniləşmə, infrastruktur layihələri – bütün bunlar göstərir ki, Azərbaycanın qədim torpağı Naxçıvan çox sürətlə inkişaf edir və naxçıvanlılar ölkəmizin hərtərəfli inkişafına öz töhfələrini verirlər".***

Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında Ali Məclisin Sədri cənab Vasif Talıbov demişdir: ***"Ümummilli liderimizin quruculuq konsepsiyası 2013-cü ildə – "Heydər Əliyev ili"ndə də muxtar respublikamızda inkişafın əsas hərəkətverici qüvvəsi olacaqdır. Biz bu yolla gedərək, muxtar respublikamızı davamlı inkişafa qovuşduraraq doğma Azərbaycanımızın inkişafına öz töhfəmizi verəcəyik".***

İl ərzində muxtar respublikamızın bütün bölgələrində – ən ucqar kəndlərdən tutmuş rayon mərkəzlərinədək, o cümlədən Naxçıvan şəhərində aparılan abadlıq-quruculuq işləri, yeni sosial obyektlərin tikilməsi, içməli su və kanalizasiya xətlərinin yenilənməsi və digər bu kimi işlər diyarımızın bütün sakinlərinin hədsiz sevincinə səbəb olmuşdur. Çox böyük sevincimizə səbəb olan hadisələrdən biri də ibtidai təhsilimin ilk üç ilini aldığım və bu gün yaşadığım Naxçıvan şəhərinin Əliabad qəsəbəsindəki 16 nömrəli tam orta məktəbin yeni binasının istifadəyə verilməsi, bu mərasimdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun şəxsən iştirakı, məktəblə, təhsillə bağlı dəyərli tövsiyələrini verməsi olmuşdur. Az qala hər gün belə xəbərləri eşitməyə alışmış bu günün gəncləri üçün bu hadisələrin həqiqi dəyəri o qədər də aydın olmaya bilər. Lakin Əliabad məktəbinin keçən əsrin əllinci, altmışıncı, yetmişinci illərindəki və sonrakı dövrlərdəki vəziyyətini görmüş yaşlı və orta nəslin nümayəndələri, o cümlədən mənim üçün bu hadisənin dəyəri, müstəsna əhəmiyyəti gün kimi aydındır. Belə ki, 1958-ci ildə ilk dəfə alimə məktəbli çantası alıb birinci sinfinə getdiyim Əliabad məktəbi cəmi iki sinif, bir müəllimlər otağından ibarət palçıq divarları olan bir binada (əgər bina demək mümkünsə) yerləşirdi. Otaqların azlığı ucbatından iki növbədə fəaliyyət göstərən 4 illik ibtidai məktəbimizin elə dörd nəfər də müəllimi vardı.

Naxçıvan şəhərinin lap yaxınlığında yerləşsə də, bu məktəbin binası uzaq kəndlərdə olan məktəblərdən də geri qalırdı. Dördüncü sinifdən sonra uşaqlar öz təhsillərini Naxçıvan şəhərindəki müxtəlif məktəblərdə, əsasən də, 1 nömrəli məktəbdə davam etdirməli olurdular.

1924-cü ildə – Naxçıvan Muxtar Respublikasının yarandığı ildən açılan həmin məktəb 1966-cı ilədək fəaliyyətini davam etdirmişdir. 1966-cı ildə indiki uşaq bağçasının yerində yeni bina inşa edildikdən sonra Əliabad məktəbi ora köçürülmüş və burada 1989-cu ilədək fəaliyyət göstərmişdir. Doğrudur, bu məktəb binası əvvəlkindən fərqli olaraq, palçıqdan deyil, daşdan inşa edilmişdi, lakin bu bina da birmərtəbəli, yöndəmsiz bir tikili olub, cəmi beş sinif otağı və bir müəllimlər otağından ibarət idi. Ona görə də 1989-cu ildə Əliabadda, indiki məktəbin yerində 24 sinifdən ibarət ikimərtəbəli binanın istifadəyə verilməsi az qala inqilabi bir yenilik kimi qarşılanmışdı.

Qeyd olunmalıdır ki, uzun müddət ərzində Əliabad məktəbinin şəraiti ürəkaçan olmasa da, burada çalışan müəllimlər yüksək fədakarlıq göstərmiş, dərs dedikləri şagirdlərə elmin bütün incəliklərini öyrətmək üçün əllərindən gələni əsirgəməmişlər.

Bu bir həqiqətdir ki, hər bir yeni yaradılan özündən əvvəlkinə nisbətən daha mükəmməl, daha mütərəqqi olur. Lakin zaman keçdikcə o da köhnəlir, müasir tələblərə cavab vermir və yenisi ilə əvəz olunmasına zərurət yaranır. Elə 1989-cu ildə istifadəyə verilmiş Əliabad məktəbi də özündən əvvəlkilərə nisbətən xeyli dərəcədə mütərəqqi olsa da, artıq neçə illər idi ki, yeni tələblərə cavab vermirdi, onun da yenisi ilə əvəz olunmasına ciddi ehtiyac yaranmışdı. Və bu ehtiyac da digər ehtiyaclarımız kimi, muxtar respublika rəhbəri tərəfindən nəzərə alındı. "Heydər Əliyev ili"ndə, noyabrın 26-da qəsəbəmizdəki 16 nömrəli tam orta məktəbin yeni binasının istifadəyə verilməsi qəsəbə sakinlərinə son illərin ən böyük töhfəsi oldu, onların sonsuz sevinc hissi yaşamaları ilə nəticələndi.

Yeni məktəb binasındakı yeniliklərlə tanış oldum. Məktəbdə gördüklərim məni məftun eləmişdi! Bu məktəbi əvvəlkilərə bənzətmək mümkün deyil! Burada nələr yoxdur?! 846 şagird yerlik məktəb binası zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Burada 47 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 3 kompüter otağı, kitabxana, idman zalı və bufet vardır. Laboratoriyaların, hərbi kabinənin, kompüter otaqlarının təchizatı müasir tələblərə tam cavab verir. Belə məktəbi bizim orta məktəb dövrümüzdə heç təsəvvür etmək belə, mümkün deyildi!

Azərbaycan Respublikası Ümumtəhsil Məktəbinin nümunəvi Əsasnaməsinin "Ümumi müddəalar" bölməsinin 2-ci bəndində deyilir: "Ümumtəhsil məktəbinin əsas vəzifəsi fərdin təbii imkanlarını inkişaf etdirmək, ona elmin əsaslarını öyrətmək, fiziki, əqli, intellektual imkanlarını, meyil, maraq və idrak qabiliyyətlərini nəzərə alaraq onun şəxsiyyətini formalaşdırmaq, həyatda və cəmiyyətdə səmərəli fəaliyyətə hazırlanmasına, müstəqil, yaradıcı düşünən, ümumi mədəniyyətə malik milli mənəviyyatlı şəxsiyyətin yetişdirilməsinə xidmət etmək, şüurlu olaraq peşə seçməyə hazırlamaq, Azərbaycanın inkişafı naminə fədakarcasına çalışan vətəndaş tərbiyə etməkdən ibarətdir".

Göründüyü kimi, bugünkü ümumtəhsil məktəbləri qarşısında qoyulan vəzifələr heç də sadə və asan deyil. Lakin cəsarətlə deyə bilərəm ki, Əliabad qəsəbəsindəki məktəbin yeni binasında yaradılmış şərait bütün bu vəzifələrin öhdəsindən layiqincə gəlməyə tam yetərlidir! Bu müqəddəs işlərində məktəbin bütün kollektivinə uğurlar diləyirəm. Əminəm ki, onlar dövlətimizin bu yüksək qayğısına layiqli işləri ilə cavab verəcəklər.

*Sonda Əliabad qəsəbəsinin bütün sakinləri adından və öz adımdan ulu öndər Heydər Əliyevin təhsil strategiyasını uğurla davam etdirməklə bizə bu sevinci bəxş etmiş muxtar respublika rəhbərinə dərin minnətdarlığımı bildirməyi özümə borc bilirəm.*

**Tofiq ƏLİYEV**
***Əliabad qəsəbəsinin sakini, kimya elmləri doktoru, professor***

# İcbari sığorta vacib sosial tələbatdır

***İnsanın cəmiyyətdəki şüurlu fəaliyyətinin əsas məzmunu əməklə məşğul olmaq, özünə və başqalarına faydalı olan maddi nemətlər istehsal etməkdir. İnsanın tələbatları genişlənib əməyin də dəyərinin artması ilə yaranan münasibətlər arasında sığorta da öz əhəmiyyətini artırmaqdadır. İstehsalın təhlükəsizliyinin artırılması, əmək qabiliyyətinin qorunması tədbirləri ilə yanaşı, sığorta da iş zamanı baş verə biləcək bədbəxt hadisələr nəticəsində insanların həyatına, eləcə də sağlamlığına və deməli, əmək qabiliyyətinə dəyən zərərlərin əvəzinin ödənilməsinə xidmət edir. Belə bir sığortanın icbari xarakterdə tətbiqi isə cəmiyyətdə hamının qəbul etdiyi digər icbari qayda-qanunlar kimi ictimai zərurətdən irəli gəlib, son nəticədə, insanın sosial müdafiəsinə xidmət edir.***

İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın mahiyyəti haqda oxucularımıza məlumat vermək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinə müraciət etdik. Müsahibimiz agentliyin baş mütəxəssisi Ülviyyə Xəlilovadır:

***– Ülviyyə xanım, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın mahiyyəti nədir və hansı qanunla tənzimlənir?***

– Bir insan üçün həyatda ən qiymətli sərvət onun həyatı və cansağlığıdır. Dövlətimiz üçün də hər bir Azərbaycan vətəndaşının sağlamlığının qorunması ən mühüm vəzifələrdəndir. İstehsalatda çalışan insanların sağlamlığının qorunması üçün lazım olan hər cür tədbirlər görülsə də, bir çox fəaliyyət növlərində yaranan riskli hallar zamanı bəzən qaçılması mümkün olmayan hadisələrlə üzbəüz qalırıq. Buna görə də istehsalatda baş verən müxtəlif bədbəxt hadisələr, habelə peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanı, əslində, vacib bir sosial tələbat kimi də qiymətləndirmək lazımdır.

Ölkəmizdə bu cür sığortalanma 11 may 2010-cu il tarixdə qəbul edilmiş "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununa əsasən aparılır. Bu qanuna əsasən aparılan icbari sığorta istehsalatda baş verən bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində sığorta olunanların əmək qabiliyyətinin itirilməsi və ya ölümü ilə bağlı sığorta ödənişinin verilməsini nəzərdə tutur. Bu ödənişlər iş vaxtı əmək qabiliyyətini itirmiş şəxslərin və ya onların himayəsində olmuş digər insanların maddi təminatına kömək edir.

***– Kimlər istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari qaydada sığortalanmalıdırlar?***

– İcbari sığortanın bu növü haqqında mövcud qanun sığortaçı, sığortalı, sığortaolunan və digər faydalanan şəxslərin hüquq və vəzifələrini müəyyənləşdirir. Qanuna əsasən, işəgötürən hüquqi və ya fiziki şəxslərlə bağlanmış əmək müqaviləsi və ya mülki-hüquq müqaviləsi əsasında işləyən hər bir işçi, dövlət orqanlarında çalışanlar, fərdi qaydada sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, habelə azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş və işləyən şəxslər istehsalatda bədbəxt hadisələrdən, peşə xəstəliklərindən icbari qaydada sığorta olunmalıdırlar. Bundan əlavə, həmin qanuna görə istehsalat təcrübəsi keçən tələbə və şagirdlər, müəssisələrdə işə cəlb olunmuş hərbi qulluqçular, hərbi və fövqəladə vəziyyət rejimində işlərin yerinə yetirilməsinə cəlb olunmuş şəxslər də bədbəxt hadisələrdən və peşə xəstəliklərindən icbari sığorta olunmalıdırlar.

***– Bəs hansı hadisələrə görə sığorta ödənişi verilir?***

– İstehsalatda bədbəxt hadisə və ya peşə xəstəliyi dedikdə xeyrinə icbari sığorta müqaviləsi bağlanılmalı olan şəxsin əmək fəaliyyətini yerinə yetirdiyi zaman bədən üzvlərinin zədələnməsi ilə sağlamlığının qəflətən və kəskin şəkildə pozulması, o cümlədən əlverişsiz və zərərli istehsalat amillərinin təsiri ilə yaranan xroniki və ya kəskin xəstəlik halları nəzərdə tutulur. Bağlanmış müqaviləyə əsasən, belə hallar baş verdikdə sığorta ödənişi almaq hüququna malik faydalanan şəxsə onun məruz qaldığı maddi itkilərin ödənilməsi məqsədilə sığorta məbləği ödənilir.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, istehsalatda bədbəxt hadisələrin baş verməsi və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın tətbiqi zamanı sığortaçı baş vermiş sığorta hadisəsinin sığortaolunanın özü tərəfindən qəsdən törədilmiş hərəkətin nəticəsi olduğu, habelə onun sərxoş vəziyyətdə olması halında baş verdiyi zaman sığorta ödənişindən imtina hüququna malikdir.

***– Adıçəkilən qanuna əsasən, kimlərin sığorta ödənişi almaq hüququ vardır?***

– Bu qanun istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi və ölüm ilə əlaqədar sığortaolunana və yaxud faydalanan şəxslərə sığorta ödənişi almaq imkanı verir. Belə faydalanan şəxslər isə istehsalatda sığorta hadisəsi nəticəsində zərərçəkmiş şəxslərin özü və ya sığorta hadisəsi nəticəsində sığortaolunanın ölməsi halında onun himayəsində olmuş əmək qabiliyyəti olmayan şəxslər, habelə sığortaolunanın ölümündən sonra doğulmuş uşaqları və digər faydalanan insanlardır.

***– Sığorta haqları kimlər tərəfindən ödənilir və hansı qaydada hesablanır?***

– İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta zamanı sığorta haqqı xeyrinə icbari sığorta müqaviləsi bağlanılan şəxslərin müəyyən olunmuş qaydada hesablanan birillik əməkhaqqı fondunun sığorta tarifinin faiz nisbəti əsasında hesablanır. Sığorta tarifi isə istehsalatda fəaliyyət növündən asılı olaraq, müəyyən olunmuş peşə riskinin dərəcəsindən və sığorta olunanların kateqoriyalarından asılı olaraq 0,2 faizdən 2 faizədək müəyyənləşdirilir.

Onu qeyd edim ki, hər bir işçinin iş yerində baş verə biləcək bədbəxt hadisələrdən və peşə xəstəliklərindən, peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın həyata keçirilməsi işəgötürənin qanunvericiliklə müəyyən olunmuş vəzifəsidir. İşəgötürən bu vəzifələri yerinə yetirməklə öz işçilərinin sosial müdafiəsini də tam təmin etmiş olur. Bu sığortanın aparılması göstərilən hallarda əmək qabiliyyətini itirmiş şəxslərin və ya onların himayəsində olmuş digər insanların maraq və mənafelərinin müdafiəsinə xidmət edir.

***Müsahibə üçün sağ olun!***

**Əli CABBAROV**

# “Araz-Naxçıvan” üçün fərqi yoxdur: I divizion və ya ölkə kuboku

***Futbol üzrə Azərbaycan kubokunun 1/8 final mərhələsində dünən “Araz-Naxçıvan” futbol komandası Zaqatalanın “Simurq” futbol komandasını qəbul etdi. Kubokun öncəki mərhələsində “Ağsu” futbol komandasını təyin edilmiş əlavə vaxtda məğlub edən muxtar respublika təmsilçisi uğurlu oyunlar seriyasını davam etdirdi. Premyer-Liqa təmsilçisi önündə çarəsiz qalmayan qırmızı-ağlar rəqibini məğlub etməklə yanaşı, həm də son zamanlar mətbuatda işıq üzü görən bəzi söz-söhbətlərə də son qoydu. Əsas və əlavə vaxtı 2:2 başa çatan matçın taleyini penalti zərbələri həll etdi. Çərçivəni daha dəqiq nişan alan “Araz-Naxçıvan”ın futbolçuları 1/4 finala yüksəlməyə müvəffəq oldular.***





Matçdan öncə rəqib düşərgəsindəki arxayınlıq muxtar respublika təmsilçisinə əlavə motivasiya vermişdi. “Simurq”un Premyer-Liqada çıxış etməsi komandanı “Araz-Naxçıvan”dan üstün göstərirdi. Elə oyunun favoriti kimi də Zaqatala təmsilçisi göstərilirdi. Buna baxmayaraq, Əsgər Abdullayevin yetirmələri cari mövsümdə qazandıqları qələbələrin təsadüfi olmadığını sübut etmək imkanı əldə etmişdilər. Və imkandan maksimum yararlana bildilər.

Futbol üzrə Azərbaycan kuboku tarixində Naxçıvan təmsilçisi 6-cı matçına çıxırdı. Buna kimi bir qələbə, bir heç-heçə əldə edən qırmızı-ağlar 3 dəfə də meydanı məğlub tərk etmişdilər. Artıq keçmişi unudub gələcəyə baxan komandamız bu görüşün ilk hissəsində matçın müqəddəratını həll etmək istəyirdi. Məhz buna görə baş məşqçi Əsgər Abdullayev yetirmələrinə daha çox hücum futbolu oynamağı, həmçinin rəqibi əks-hücumlarda yaxalamağı tapşırmışdı.

İlk dəqiqələrdən rəqibi cərimə meydançasına sıxışdırmağa müvəffəq olan “Araz-Naxçıvan” 17-ci dəqiqədə qapısından qol buraxdı. Cərimə meydançasında rəqib futbolçulara qarşı kobud oynayan qapıçımız Emil Balayev sarı vərəqə almaqla yanaşı, həm də penaltiyə səbəb oldu. Topa yaxınlaşan Rəşad Eyyubov isə tablodakı sıfırların birini dəyişdi – 0:1. Qol sanki bizimkiləri yuxudan ayıltdı. Ardıcıl hücumlar öz bəhrəsini ilk hissənin son dəqiqələrində verdi. Sol cinahdan edilən hücum nəticəsində cərimə meydançasında rəqib futbolçuların kobudluğu referi Orxan Məmmədovun diqqətindən yayınmadı. Penalti nöqtəsinə yaxınlaşan David Canıyev “status-kvo”nu bərpa etdi – 1:1.

İkinci hissə tam fərqli başladı. Əvvəlcə rəqibin oyundankənar vəziyyətdə vurduğu qol hakimin nəzərindən yayınmadı. Rəqib komandanın cərimə meydançasında lövbər salan muxtar respublika təmsilçisinin heyətində David Canıyev, Bəxtiyar Soltanov və Rəhman Musayevin səyləri nəticəsiz qalınca, “Simurq” hesabı dəyişdi. Bu dəfə də səhnəyə Rəşad Eyyubov çıxdı – 1:2. Məğlub olmağı ağlından belə keçirməyən “Araz-Naxçıvan” son dəqiqələrdə bərabərlik qolunu vurmağa nail oldu. Sağ cinahdan ideal ötürmə alan Bəxtiyar Soltanovun vurduğu qol oyuna vaxt əlavə edilməsinə səbəb oldu – 2:2.

Əlavə edilmiş 30 dəqiqə isə komandamız üçün yaxşı başladı. Əsas vaxtın son dəqiqələrində Tural Axundovun qırmızı vərəqə alması rəqibin meydanda az qalmasına səbəb oldu. Bundan istifadə edən Əsgər Abdullayevin yetirmələri hücumlarının kəsərini artırdılar. Ancaq rəqib qapıçının inamlı çıxışı hesabın dəyişməsinə mane oldu.

Əlavə vaxt da heç-heçə başa çatdığından oyun penalti zərbələri ilə davam etdi. İlk olaraq topa “Araz-Naxçıvan”ın futbolçusu Eşqin Quliyev yaxınlaşdı. Onun zərbəsini isə qapıçı dəf etməyə müvəffəq oldu. Ancaq rəqib futbolçu Stepan Polyakın da penalti zərbəsi dirəyə tuş gəlincə qırmızı-ağlar rahat nəfəs aldı. Qapıçımız Emil Balayevin mükəmməl oyunu Andersonun zərbəsinin dəf edilməsi ilə nəticələndi. Elmin Çobanov, David Canıyev və Rəhman Musayevin ardınca topa sonuncu yaxınlaşan Emin İmaməliyev oyunun taleyini həll etdi. Soyuqqanlı çıxışı ilə diqqəti cəlb edən E.İmaməliyevin zərbəsi nəticəsində “Araz-Naxçıvan” “Simurq”u məğlub etdi. Ümumi hesabda 6:4 hesablı qələbə “Araz-Naxçıvan”ı növbəti mərhələyə yüksəltdi. Bu mərhələdə komandamızın rəqibi “Xəzər-Lənkəran” olacaq. İki oyundan ibarət 1/4 final mərhələsinin matçları gələn ilin mart ayında keçiriləcək.

***Fikirlər***

*İqor GETMAN (“Simurq”un məşqçisi):* “Bu oyuna ciddi hazırlaşmışdıq. “Araz-Naxçıvan” yaxşı formalaşıb və bu gün meydanda inamlı təsir bağışladı. Qələbəyə görə onları təbrik edirəm”.

*Əsgər ABDULLAYEV (“Araz-Naxçıvan”ın baş məşqçisi):* “Çətin oyun oldu. Futbolçular sonadək mübarizə apardılar və layiqli qələbə qazandılar. “Simurq” Premyer-Liqada daha az qol buraxan komandalardan biridir. Buna baxmayaraq, öz oyunumuzu göstərdik və qələbə qazandıq”.

**Ceyhun MƏMMƏDOV**

## AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutu hesabat verib

***“AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun ötən illərdə apardığı elmi-tədqiqat işləri imkan verir ki, bu elmi-tədqiqat institutu tədqiqat sahələrini daha da genişləndirsin”. Bunu institutun hesabat yığıncağında AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev deyib.***

Bioresurslar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Tariyel Talıbov görülən işlər haqqında məruzə ilə çıxış edib. Qeyd olunub ki, 2013-cü tədqiqat ilində plana uyğun olaraq, institutda 27 mərhələdə 11 iş yerinə yetirilib. Elmi-tədqiqat işi ilə 27 nəfər, o cümlədən bir nəfər AMEA-nın müxbir üzvü, bir nəfər biologiya elmləri doktoru, bir nəfər aqrar elmlər doktoru, 12 nəfər biologiya üzrə fəlsəfə doktoru, bir nəfər baytarlıq üzrə fəlsəfə doktoru, 6 nəfər kənd təsərrüfatı üzrə fəlsəfə doktoru, bir nəfər kimya üzrə fəlsəfə doktoru, 4 nəfər isə dissertant məşğul olub.

Tədqiqat ilində Bioresurslar İnstitutunun əməkdaşları tərəfindən 120 elmi əsər – 7 monoqrafiya, 2 kitab, bir metodik vəsait, 110 elmi məqalə çap edilib ki, bunlardan 2 monoqrafiya, 9 məqalə, 20 konfrans materialı xaricdə işıq üzü görüb.

Sonra AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin üzvləri çıxış edərək hesabat məruzəsi ilə bağlı fikirlərini bildiriblər. Çıxışlarda əldə edilən nəticələr təqdirəlayiq hesab olunub.

## “Nar Mobile”ın yeni satış və xidmət mərkəzi fəaliyyətə başlayıb



Naxçıvan şəhərinin “Təbriz” küçəsi 1 ünvanında “Nar Mobile” Mobil Telefon Şirkətinin yeni satış və xidmət mərkəzi açılıb. Dekabrın 4-də yeni mərkəzin açılışı olub. Açılış zamanı sözügedən şirkətin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Nigar Arpadarainin, Satış şöbəsinin baş direktoru Leyla Nəsrullayevanın, Naxçıvan Muxtar Respublikası rabitə və informasiya texnologiyaları nazirinin müavini Əli Mikayılovun çıxışları olub. Çıxışlarda ölkəmizdə, eləcə də muxtar respublikamızda mobil telefon şirkətlərinə yaradılan imkanlardan danışılıb, bu imkanların şirkətlərin müştərilərə göstərdiyi servis xidmətlərinə də böyük təsir göstərdiyindən söhbət açılıb.

“Nar Mobile”ın Satış şöbəsinin baş direktoru Leyla Nəsrullayeva təmsil etdiyi mobil operatorun satış mərkəzlərində servis xidmətlərinin yaxşılaşdırılması istiqamətində görülən işlər haqqında danışaraq qeyd edib ki, müştəri məmnuniyyətinin təmin olunmasına, xidmət səviyyəsinə, eləcə də rahat və əlçatan yerlərdə belə mərkəzlərin açılmasına xüsusi diqqət yetirilir. “Nar Mobile” təkcə paytaxtda deyil, bölgələrdə də öz müştərilərinə diqqət ayırır. Bu gün Naxçıvan şəhərində 3, Ordubad və Culfa rayonlarının hər birində 1 eksklüziv diler mərkəzi vardır. Ümumilikdə, muxtar respublikada 13 diler mərkəzi fəaliyyət göstərir. Müştəri tələbatı nəzərə alınaraq gələcəkdə bu mərkəzlərin sayının artırılması nəzərdə tutulur. Naxçıvan şəhərində fəaliyyətə başlayan yeni satış və xidmət mərkəzi ən müasir standartlar səviyyəsində müştərilərinə xidmət göstərəcəkdir.

**Xəbərlər şöbəsi**

## Əsgərlərimizə növbəti sovqat

Avqust ayının 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2013-2014-cü ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə də bir sıra tapşırıqlar verilib. Onlardan biri də nazirlik tərəfindən hərbi hissələr üçün yun corabların toxunmasının təşkilinin davam etdirilməsi olub. Nəzərdə tutulub ki, cari ilin sonuna kimi 5000 cüt yun corab hərbi hissələrə təhvil verilsin. Bu günə kimi 3279 cüt yun corab toxunaraq 705 saylı hərbi hissənin əsgərlərinə verilib.

Hərbi hissələrə yun corabların verilməsi ilə əlaqədar növbəti tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin rəisi Sevindik Vəliyev çıxış edərək bildirib ki, bu gün 721 cüt corab 705 saylı hərbi hissəyə, 1000 cüt corab isə “Naxçıvan” Sərhəd Diviziyasına təhvil verilir.

Qeyd edək ki, corablar ahıl və fiziki imkanları məhdud vətəndaşlarımız tərəfindən toxunub. Bu tədbir həmin təbəqədən olan insanların məşğulluğunu təmin etməklə onların maddi vəziyyətini də yaxşılaşdırıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 2013-cü ilin noyabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi | Təbii qazın dəyəri ( manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 439550 | 43955 | 44095 | 100,3 |
| 2. | Şərur rayonu | 1255560 | 125556 | 125756 | 100,2 |
| 3. | Sədərək rayonu | 151566 | 15157 | 15176 | 100,1 |
| 4. | Naxçıvan şəhəri | 1730120 | 173012 | 173012 | 100,0 |
| 5. | Babək rayonu | 1128850 | 112885 | 112885 | 100,0 |
| 6. | Ordubad rayonu | 686850 | 68685 | 68685 | 100,0 |
| 7. | Culfa rayonu | 830300 | 83030 | 83030 | 100,0 |
| 8. | Kəngərli rayonu | 271704 | 27170 | 27170 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 6920216 | 691670 | 691196 | 99,9 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **13414716** | **1341120** | **1341005** | **100,0** |

### İtmişdir

Naxçıvan şəhəri, “İstiqlal” küçəsi, bina 82, mənzil 23-də yaşayan Hümbətov Əvəz Abbas oğlunun adına olan 7459 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

### Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin baş həkimi Kəmalə Qurbanova və mərkəzin kollektivi iş yoldaşları **QURBAN QASIMOVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin baş həkimi Sevil İbrahimova və mərkəzin kollektivi iş yoldaşları **QURBAN QASIMOVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının baş həkimi Əli Ələsgərov və xəstəxananın həkimlərindən Qasım Əliyev, Xaspolad Tutayuk, Etibar Bababəyli və Adil Məmmədov həkim **QURBAN QASIMOVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları Ofelya Əliyevaya, qayınanası **SƏKİNƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Filarmoniyasının direktoru Elman Əliyev və filarmoniyanın kollektivi İmamqulu Əhmədova, dayısı **QURBAN QASIMOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının baş həkimi Əli Ələsgərov və xəstəxananın həkimlərindən Qasım Əliyev, Arif Rzayev, Etibar Bababəyli, Məhərrəm Tarverdiyev, Fərman Novruzov və Mənsur Rzayev iş yoldaşları Vəfa Fətullayevaya və Fatma İsmayılovaya, əzizləri **GÜLLÜ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının Urologiya şöbəsinin müdiri Xaspolad Tutayuk və şöbənin əməkdaşları iş yoldaşları Fatma İsmayılovaya, anası **GÜLLÜ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Elnur Kəlbizadə
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və “Əcəmi” NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 3940. Sifariş № 1097